# İbtidai sinif şagirdlərinə İslam dəyərləri əsasında əxlaqi keyfiyyətlərin aşılanması

**Günel Əmirxan qızı Əmirxanzadə**
*Bakı Qızlar Universiteti*
**E-mail:** agayeva2005.ag@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** ibtidai sinif, şagirdlər, İslam, ailə, şəxsiyyət, müəllim, əxlaq, keyfiyyət
**Ключевые слова:** начальная школа, ученики, Ислам, семья, личность, учитель, мораль, качество
**Key words:** elementary school, students, Islam, family, personality, teacher, morality, quality

Şagirdlərin mənəvi və əxlaqi tərbiyəsi məsələsi müasir cəmiyyətin əsas problemlərindən biridir. Çətin vəziyyətin tipik səbəbləri bunlardır: yeni nəsil üçün dəqiq müsbət həyat təlimatlarının olmaması, uşaqlarla mədəni və asudə vaxtların azalması və digərləri. Kütləvi informasiya vasitələrində şiddət təbliğatı, alkoqollu içkilərin və tütün məhsullarının reklamı fonunda vəziyyət daha da qəlizləşir. Ailənin, ümumi təhsil məktəbinin qarşısında baş verənləri müstəqil qiymətləndirə bilən və fəaliyyətini ətrafındakı insanların maraqlarına uyğun qura bilən məsuliyyətli bir vətəndaş yetişdirmək vəzifəsi durur. Bu problemin həlli şagirdin şəxsiyyətinin sabit mənəvi-əxlaqi xüsusiyyətlərinin və keyfiyyətlərinin formalaşması ilə əlaqələndirilir (1).

Əxlaq — ümumiyyətlə, yaxşı olduğu düşünülən və ya müəyyən həyat anlayışından qaynaqlanan davranış qaydalarının hamısına verilən addır. Təhsil insanların yetişdirilməsində və ictimailəşməsində vacib vəzifələrə malikdir. Təhsil insanın fitri güclərini inkişaf etdirmək üçün mövcud vasitədir. Buna görə də, təhsil insanın fitri qüvvələrini emal etmək üçün ətraf mühit amilidir. Şagirdin təhsil aldığı mühit olan məktəbin əxlaqi inkişafda böyük rolu var. Şagirdin müəllimi və sinifdəki digər şagirdlərlə münasibətlərinin keyfiyyəti də əxlaqi inkişafa təsir göstərir. Müəllimin şəxsiyyəti, münasibəti, davranışı, hadisələrə baxışı etik sahədəki texniki biliklərdən daha təsirli olur. Müəllim və şagird arasındakı müsbət münasibət mənəvi inkişafa müsbət təsir göstərir (3).

İbtidai siniflərdə (I-IV siniflər) xüsusi din fənni olmasa da, İslam dəyərləri əsasında əxlaqi keyfiyyətləri "Həyat bilgisi" fənnində aşılanır. Həyat bilgisi – şagirdin özünü bioloji, psixoloji, mənəvi, əxlaqi və sosial tərəfləri ilə bütöv varlıq kimi başa düşməsi və reallaşdırması üçün lazım olan bilik, bacarıq və dəyərlər sistemi formalaşdırmağa, təkmilləşdirməyə kömək edən inteqrativ fəndir. Bu fəndə eyni zamanda, şagirdlərin məktəb həyatına uyğunlaşmasını təmin etməklə yanaşı, ətraf mühitin müşahidəsi yer alır. Bundan əlavə, uşaq psixologiyasına uyğun olaraq oturmaq və ayağa durmaq, yeməkdən əvvəl və sonra ediləcək şeylər, habelə uşağın gündəlik həyatında vacib məlumatlar və davranışlara uyğun olaraq verilməyə çalışılır. Beləliklə, şagirdlərə ilk dörd sinifdə tədris olunan həyat bilgisi dərsi əxlaqın aşılanması üçün hazırlıq mərhələsidir.

İbtidai sinif şagirdlərinə İslam dəyərləri əsasında "Quran-i Kərim"dən seçilmiş aşağıdakı surələrdən nümunələrlə əxlaqi keyfiyyətlər aşılana bilər:

1. Şagirdlərə həqiqəti söyləməyi, yalan danışmamağı, aldatmamağı, etibarlı olmağı öyrət-

mək üçün:

*“... Yalanlardan çəkinin ...” (Həcc surəsi, 30-cu ayə)*

*“Ölçəndə ölçəni dəqiqləşdirin, düzgün tərəzi ilə çəkin. Bu nəticə baxımından daha yaxşıdır.” (İsra surəsi, 35-ci ayə)*

*“Ey iman gətirənlər! Allaha qarşı çıxmaqdan çəkinin və doğru danışın ki, (Allah) işlərinizi düzəltsin və günahlarınızı bağışlasın ... ”(Əhzab surəsi, 70-ci ayə)*

*“Ey iman gətirənlər! Allahdan qorxun və haqqın yanında olun.”(Tövbə surəsi, 119-cu ayə).*

2. Şagirdlərə xeyirxahlıq və kömək etməyi öyrətmək üçün:

*“Ey iman gətirənlər! ... Yaxşılıq və salehlikdə bir-birinizə kömək edin. Günah etmək və düşmənçilik etmək üçün işbirliyi etməyin ...”(Maidə surəsi, 2-ci ayə)*

*“Allaha və axirət gününə inanırlar. Yaxşılığa əmr verirlər. Pisliyi qadağan edir və xeyir işlərində bir-birləri ilə yarışırlar. Budur, onlar salehlərdəndirlər”. (Əli İmran surəsi, 114-cü ayə)*

3. Şagirdlərə valideynlərə və ağsaqqallara hörmət etməyi, yaşıdlarına sevgi göstərmək üçün:

*“Biz insanlara valideynlərinə yaxşı münasibət göstərmələrini əmr etdik. Anası onu hər gün zəif hiss edərək qarnında gəzdirirdi ... ” (Loğman surəsi, 14-cü ayə)*

4. Şagirdlərə ədalətli olmağı öyrətmək üçün:

*“Ey iman gətirənlər! Sizə, valideynlərinizə və qohumlarınıza qarşı olsa belə, ədaləti dəqiqliklə qoruyan və Allaha şahidlik edənlərdən olun. Şahid olduğunuz insanlar zəngin və kasıb olsa da, ədalətdən uzaqlaşmayın ... Ədaləti həyata keçirməkdə nəfsinizə aldanmayın” (Ən-Nisa surəsi, 735-ci ayə)*

5. Şagirdlərə dostluğa və qardaşlığa sadiq olmağı öyrətmək üçün:

*“Möminlər yalnız qardaşdırlar. Elə isə qardaşlarınızın arasını düzəldin...” (Hucurat surəsi, 10-cu ayə)*

6. Şagirdlərə təmiz olmağı öyrətmək üçün:

*“Allah tövbə edənləri və təmiz olanları sevir”(Bəqərə surəsi, 222-ci ayə)*

7. Şagirdlərə qeybət və böhtandan qaçmağı öyrətmək üçün:

*“Ey iman gətirənlər! ...Bir-birinizin çatışmazlıqlarını və qüsurlarını axtarmayın. Bir-birinizin qeybətini eləməyin ...” (Hucurat surəsi, 12-ci ayə)*

8. Şagirdlərə başqalarına zərər verməməyi öyrətmək üçün:

*“Bir insan bir insanı öldürürsə, bu bütün bəşəriyyəti öldürmək kimidir, kimsə bir canı qurtararsa, bütün bəşəriyyəti qurtarmaq kimi olar” (Maidə surəsi, 32-ci ayə)*

9. Şagirdlərə oğurlamamağı və qul haqqı yeməməyi öyrətmək üçün:

*“Kim zalımlığından (oğurluqdan) sonra tövbə edib vəziyyətini düzəltsə, Allah tövbəsini qəbul edəcəkdir. Çünki, Allah bağışlayandır və çox mərhəmətlidir” (Maidə surəsi, 39-cu ayə)*

10. Şagirdlərə verilən sözün üstündə durmağı və səbirli olmağı öyrətmək üçün:

*“... Sözünüzü də yerinə yetirin. Çünki, verilən söz məsuliyyət tələb edir” (İsra surəsi, 34-cü ayə)*

11. Şagirdlərə əmanətə xəyanət etməməyi öyrətmək üçün:

*“Möminlər əmanətlərinə və vədlərinə itaət edirlər” (Mömin surəsi, 1-8-ci ayələr)*

12. Şagirdləri pis vərdişlərdən çəkindirmək üçün:

*“... Özünüzü təhlükəyə atmayın. Yaxşılıq et. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir” (Bəqərə surəsi, 195-ci ayə)*

Bu cür geniş əhatə dairəsinə malik olan fənn ibtidai sinif şagirdlərinin həyati əhəmiyyət

kəsb edən bilik, bacarıq və vərdişlər qazanması baxımından vacibdir. Şagirdlərin əxlaqi dəyərlərə yiyələnmələrinə, şəxsiyyət kimi formalaşmalarına kömək edir. Fənnin şagirdlərdə ünsiyyət qurma və birlikdə çalışma kimi mənəvi dəyərlərin formalaşdırılmasında, bir çox vərdişlərin yaranmasında, eləcə də əxlaqi dəyərlərin aşılanmasında mühüm rolu var (2).

**Məqalənin aktuallığı.** Azərbaycanın müstəqillik əldə etməsi ilə müstəqil dövlətimizə ləyaqətli, milli-mənəvi dəyərlərinə sahib vətəndaş tərbiyəsi bu günkü təhsilimizin ən aktual məsələlərindən biri olduğundan və məqalə də bu mövzuya həsr edildiyindən onu aktual saya bilərik.

**Məqalənin elmi yeniliyi.** Kiçik yaşlı məktəblilərin təlim-tərbiyəsinin islam dəyərlərinə əsaslanaraq həyata keçirilməsi və məktəblərimizdə təbliği yollarının araşdırılması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2015, 324 s.
2. Kərimov Y. İslam dəyərləri işığında. Bakı, 1999, 113 s.
3. Ильина О. Духовно-нравственное воспитание детей дошкольного возраста в процессе игровой деятельности // «Ученые записки», Курск, 2017, № 3 (43), с. 30-36.

**Г.А. Амирханзаде**

## Воспитание моральных качеств учащихся начальной школы на основе Исламских ценностей

## Резюме

В быстро глобализирующемся мире с развитием технологий религиозные, социальные, экономические и культурные ценности начали распространяться по всему миру. В связи с этим возросла важность как защиты наших моральных ценностей, так и наличия общечеловеческих ценностей. Одна из важных функций образования - духовное развитие учащихся и обеспечение их человеческих ценностей. Вопросы образования, воспитания и развития учащихся органически связаны при воспитании у младших школьников нравственных качеств на основе Исламских ценностей. Они приобретают высокие моральные ценности, такие как моральная зрелость, чистота, честность, убежденность, справедливость, терпимость, терпимость, чувство собственного достоинства, самоуважение и уважение к другим

**G.A. Amirxanzada**

## Inculcating moral qualities in primary school students based on Islamic values

## Summary

In a rapidly globalizing world, with the development of technology, religious, social, economic and cultural values began to spread internationally. In this regard, the importance of both protecting our moral values and having universal values has increased. One of the important functions of education is to develop students spiritually and ensure that they have human values. The issues of education, upbringing and development of students are organically linked during the inculcation of moral qualities in primary school students on the basis of Islamic values. They acquire high moral values, such as moral maturity, purity, honesty, conviction, justice, tolerance, tolerance, self-esteem, self-respect and respect for others.

**Redaksiyaya daxil olub:** 19.03.2021